# MÜBARİZ KEŞİKDƏ

22 avqust 2019-cu il
Cümə axşamı
№ 32 (3447)

1933-cü ildən çıxır

www.mk.mia.gov.az

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# UĞURLU İSLAHATLAR, MƏQSƏDYÖNLÜ, UZAQGÖRƏN SİYASƏT VƏ ƏN İSLAHATÇI ÖLKƏ

İstənilən ölkədə iqtisadi azadlıq mövcuddursa, dövlət xarici güc və amillərdən asılı olmayaraq, xalqın layiqli yaşayışını təmin edə bilir, maddi və mənəvi ehtiyatlarını qorumağa qadir olur. Məhz ölkənin iqtisadi azadlığı şəraitində azad iqtisadiyyat, yəni fəaliyyəti kənar qüvvələrin təsirinə məruz qalmayan sağlam və sərbəst rəqabətə əsaslanan iqtisadiyyat mümkündür. Bu gün Azərbaycanın da adı həmin ölkələr sırasında çəkilir.

ABŞ-ın tanınmış "The Heritage Foundation" analitik mərkəzi tərəfindən hazırlanan "İqtisadi Azadlıq İndeksi-2019"da Azərbaycanın ən böyük irəliləyiş edən ölkə kimi təqdim olunması bunun əyani təsdiqidir.

Azərbaycanda mövcud olan iqtisadi müstəqillik siyasi müstəqilliyin və genişmiqyaslı inkişafın təminatçısıdır desək, yanılmarıq. Prezident İlham Əliyevin 2003-cü ildən bugünədək nümayiş etdirdiyi siyasi iradəyə uyğun olaraq, ölkəmizdə güclü iqtisadi inkişaf, iqtisadi müstəqillik dərin məzmunlu sosial siyasətlə tamamlanır. Son illərdə isə aparılan islahatlar daha da dərinləşib və mahiyyətcə yeni xarakter kəsb edib.



İqtisadi islahatlar nəticəsində ölkədə maliyyə sabitliyi və iqtisadi artım yaranıb, bir çox sahələrdə, xüsusilə kənd təsərrüfatı, qeyri-neft sənayesi və digər sektorlarda əhəmiyyətli irəliləyiş əldə edilib. Dövlət başçısı tərəfindən ölkədə sahibkarlığa dəstək məqsədilə biznesin bütün sahələri, xüsusilə biznesə başlama, tikinti üçün icazələrin alınması, elektrik təchizatı şəbəkələrinə qoşulma, maliyyə mənbələrinə çıxış imkanlarının artırılması, vergilərin ödənilməsi, əmlakın qeydiyyatı, xarici ticarətin aparılması üzrə əhəmiyyətli irəliləyiş baş verib. Dövlət-biznes tərəfdaşlığında qarşılıqlı inam daha da artıb, bu münasibətlər gələcək iqtisadi inkişafın təməl prinsipinə çevrilib.

İqtisadi və sosial islahatlar paralel şəkildə aparılır, infrastruktur quruculuğu davam etdirilir, regional əhəmiyyətli neft-qaz, rəqəmsal və nəqliyyat-logistika layihələri həyata keçirilir. Artıq nəticələr də göz qabağındadır. Ölkə iqtisadiyyatı 3 faizdən illik böyümə fazasına keçib, xüsusilə qeyri-neft sənayesi, bitkiçilik və qeyri-neft ixracı ikirəqəmli həddə böyüyür. Dövlət büdcəsi və tədiyyə balansında trendlər müsbətdir. Strateji valyuta ehtiyatları ÜDM-in 80 faizindən artığını təşkil etdiyi halda, xarici borc ÜDM-in 20 faizindən də azdır. Manatın məzənnə sabitliyi və inflyasiyanın aşağı həddi təmin edilib. ***Təkcə builki sosial paket çərçivəsində 4 milyondan çox vətəndaşın sosial rifah halını yaxşılaşdırmaq üçün 4 milyard manatdan artıq vəsait ayrılıb.***

Bütün bu islahatlar təbii ki, beynəlxalq reytinq təşkilatlarının hər il açıqladıqları hesabatlarda da öz əksini tapır. Azərbaycan ildən-ilə hesabatlarda mövqeyini yaxşılaşdıraraq bir çox böyük dövlətləri arxada qoyur.

***Son bir neçə ildə hazırlanan beynəlxalq hesabatlara nəzər yetirsək, bunu aydın şəkildə görərik. Məsələn, əgər Azərbaycan Dünya Bankı tərəfindən hazırlanan "Doing Business 2017" hesabatında 65-ci pillədə qərarlaşmışdısa, bir il sonra "Doing Business 2018" hesabatında 8 pillə yüksələrək 57-ci yeri tutdu. 190 ölkənin biznes mühitini qiymətləndirən hesabata əsasən, Azərbaycan Avropa və Mərkəzi Asiya regionu üzrə ən islahatçı 3 ölkədən biri sayılırdı.***

***"Doing Business 2019" hesabatında isə Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək ən çox islahat aparan ölkə elan olundu. Yeni hesabatda Azərbaycanın mövqeyi 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşdı.*** Bununla da dünyanın bir çox ölkələrini geridə qoymaqla MDB ölkələri arasında lider mövqeyə yüksəldi.

Hesabatda deyilirdi ki, Avropa və Mərkəzi Asiya bölgəsinə daxil olan Azərbaycan ən yaxşı təkmilləşdirmə göstəricilərinə malik 10 ölkə arasında və qlobal səviyyədə rekorda nail olaraq səkkiz sahə üzrə islahatlar aparmaqla, 2017-2018-ci illərdə biznes fəaliyyətinin daha da asanlaşdırılmasını təmin edib.

"Doing Business" komandası ölkələr üzrə aparılan islahatları həm dövlət, həm də çoxsaylı biznes nümayəndələrindən, habelə məşhur konsaltinq şirkətlərindən toplanan sorğulara verilən cavablar əsasında qiymətləndirir. Aparılan islahatların dəqiqləşdirilməsi məqsədilə ölkələrə ayrı-ayrılıqda xüsusi ekspert missiyaları göndərilir, islahatların real praktikada tətbiqi yerində müvafiq meyarlarla araşdırılır. Nəticədə hər bir ölkənin həm ümumi, həm də 10 indikator üzrə xüsusi qiymət balı hesablanaraq mövqeləri müəyyən edilir.

***Əgər 5 il öncə ABŞ-n "The Heritage Foundation" analitik mərkəzinin hazırladığı "İqtisadi Azadlıq İndeksi - 2014" adlı hesabatda Azərbaycan 100 mümkün xaldan 61,3 xal toplamaqla dünyanın 186 ölkəsi arasında 81-ci yeri tutaraq iqtisadi cəhətdən orta azad ölkələr sırasına daxil olmuşdusa, "İqtisadi Azadlıq İndeksi-2018"də 67-ci, bu il isə 180 ölkə arasında 60-cı yerə yüksəlib.***

***Bütün bunlar cənab İlham Əliyevin məqsədyönlü, dərin və köklü iqtisadi islahatlarına verilən beynəlxalq qiymətdir.*** Əksər beynəlxalq reytinq agentlikləri tərəfindən ard-arda ölkə iqtisadiyyatının real vəziyyəti haqqında müsbət mövqe nümayiş etdirməsi təbii ki, təsadüfi deyil. Bütün hesabatlarda Azərbaycanın adının yüksəlməsini müşahidə edirik.

Azərbaycanın iqtisadi sahədə qazandığı bu nailiyyətlər, eləcə də ölkədə həyata keçirilən liberal iqtisadi islahatlar, rəqabətə davamlı, innovativ iqtisadi sistemin formalaşdırılması istiqamətində atılan ardıcıl və qətiyyətli addımlar dünyanın aparıcı iqtisadi və maliyyə institutlarının, reytinq agentliklərinin, iqtisadi azadlıq səviyyəsini tədqiq edən fond və mərkəzlərin diqqətindən kənarda qalmır və yüksək qiymətləndirilir.

Bu bir daha təsdiqləyir ki, iqtisadi cəhətdən azad olan Azərbaycanda əlverişli biznes, investisiya mühiti mövcuddur. ***Bütün bu uğurlar böyük iqtisadi islahatların, düşünülmüş, elmi əsaslara malik inkişaf konsepsiyasının həyata keçirilməsi və siyasi iradə nəticəsində mümkün olub.*** Bu, həm də Azərbaycanın dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə çatmaq əzmindən xəbər verir. Bu ilin 6 ayının digər makroiqtisadi göstəriciləri də deməyə əsas verir ki, 2019-cu il Azərbaycanın iqtisadi inkişafında mühüm dövr olacaq.

Əminliklə deyə bilərik ki, həyata keçirilən uğurlu iqtisadi islahatlar, reallaşan sosial-iqtisadi layihələr nəticəsində növbəti illərdə açıqlanacaq beynəlxalq hesabatlarda ölkəmizin mövqeyi daha da yaxşılaşacaq. Son bir il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə uğurlu islahatlar həyata keçirilib. Biznes mühitinin əlverişliliyinin daha da artırılması üçün vergi və gömrük islahatları davam etdirilir, onlayn vahid ixrac ərizəsi, yaşıl dəhliz, elektron məhkəmə, elektron satınalma, tikintidə "bir pəncərə" sistemi, biznesə başlama, elektrik təchizatı şəbəkələrinə çıxış, kreditlərə əlçatanlıq, müqavilələrin icrası və əmlakın qeydiyyatı və digər sahələrdə mühüm işlər görülüb və davam etdirilir. Bu səbəbdən deyə bilərik ki, Azərbaycan növbəti ildə də "ən islahatçı ölkə" statusunu qoruyub saxlaya biləcək.

---

**Dövlətimizin başçısı avqustun 16-da Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının və mülki işçilərinin təltif edilməsi haqqında sərəncamlar imzalayıb.**

❖❖❖❖❖

***Avqustun 19-da Prezident İlham Əliyev "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1619-VQD nömrəli Qanununun tətbiqi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Dövlətimizin başçısı avqustun 19-da "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, "Balıqçılıq haqqında", "Yeyinti məhsulları haqqında", "Taxıl haqqında", "Üzümçülük və şərabçılıq haqqında", "Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında" və "Çayçılıq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1662-VQD nömrəli Qanununun tətbiqi haqqında fərman imzalayıb.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri avqustun 19-da "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Həmkarlar ittifaqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Gənclər siyasəti haqqında", "Əmək pensiyaları haqqında", "Təhsil haqqında", "Daşınar əmlakın yüklülüyü haqqında", "İşsizlikdən sığorta haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1661-VQD nömrəli Qanununun tətbiqi haqqında fərman imzalayıb.***

---

# DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI



**Avqustun 21-də Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov Avstriyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bernd Aleksander Bayerlini qəbul edib.**

Qonaqları salamlayan nazir Azərbaycanla Avstriya arasında əlaqələrin gündən-günə inkişaf etdiyini məmnunluqla diqqətə çatdıraraq iki ölkənin Daxili İşlər nazirlikləri arasında sıx işgüzar əlaqələrin də mövcudluğunu, bu əməkdaşlığın beynəlxalq hüquqi sənədlər əsasında həyata keçirildiyini bildirib. Avropa ölkələrinin polis təşkilatları arasında Avstriya DİN-in ölkəmizin anoloji qurumu ilə ikitərəfli əlaqələr quran ilk orqan olduğunu xatırladan nazir polis təlimi və ixtisasartırma sahəsində iki mühüm sənədin imzalandığını, qarşılıqlı səfərlərin əməkdaşlığın daha da dərinləşməsinə təkan verdiyini xüsusi qeyd edib.

Daxili İşlər naziri Vyana şəhər polisindən olan nümayəndələrin Bakıda keçirilmiş "Avrovizyon" mahnı müsabiqəsi, I Avropa Oyunları ərəfəsində Azərbaycana səfər etmələrindən, genişmiqyaslı tədbirlər zamanı ictimai təhlükəsizliyin təmini sahəsində öz təcrübələrini bölüşmələrindən məmnunluğunu bildirib.

O, problemlərdən danışarkən toxunularkən transmilli mütəşəkkil cinayətkarlığın əsas növlərindən olan beynəlxalq terrorçuluq, narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri və qanunsuz miqrasiyanın diqqət mərkəzində dayandığını və belə qlobal xarakterli təhlükəli hallarla effektiv mübarizədə səylərin birləşdirilməsinin zəruriliyini vurğulayıb.

Səfir Bernd Aleksander Bayerl səmimi qəbula və məlumatlara görə minnətdarlığını bildirib, hüquq-mühafizə fəaliyyəti sahəsində təcrübə və məlumat mübadiləsinin əhəmiyyətini, transmilli mütəşəkkil cinayətkarlıqla mübarizədə Azərbaycanın hüquq-mühafizə orqanları, o cümlədən Daxili İşlər Nazirliyi ilə əməkdaşlıqda maraqlı olduqlarını qeyd edib.

Ölkələrimiz arasında iqtisadi, siyasi və digər sahələrdə münasibətlərin günü-gündən inkişaf etdiyini vurğulayan diplomat fəaliyyəti dövründə müvafiq dövlət qurumları, o cümlədən iki dost dövlətin Daxili İşlər nazirlikləri arasındakı əlaqələrin daha da genişlənməsinə öz töhfəsini verəcəyini diqqətə çatdırıb.

Səmimi və işgüzarlıq şəraitində keçən görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə olunub.

*21 avqust 2019-cu il.*

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Avqustun 18-də Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov DİN Daxili Qoşunlarının paytaxtda yerləşən "N" saylı hərbi hissəsində olub. Əvvəlcə nazir müavini-Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov general-polkovnik Vilayət Eyvazova şəxsi heyətin və hərbi texnikanın baxışa hazır olması barədə raport verib.**

Nazir şərəf manqası ilə salamlaşdıqdan sonra şəxsi heyətin kazarma-məişət şəraiti, qidalanması, sağlamlıq durumu və təminat məsələləri ilə yaxından tanış olub, xidməti istifadədə olan texnikaya baxıb, ərazidə aparılan abadlıq, quruculuq işləri ilə maraqlanıb.






Sonra hərbi hissənin sıra meydanında hərbi qulluqçuların və əsgərlərin qarşısında çıxış edən nazir V.Eyvazov ulu öndərin əsasını qoyduğu inkişaf və tərəqqi strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilməsi nəticəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının artdığını, beynəlxalq mövqelərinin möhkəmləndiyini bildirib, möhtərəm dövlət başçımızın ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, maddi-texniki təminatına, iş və məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

Daxili Qoşunların ölkəmizdə müstəqilliyin və daxili sabitliyin qorunmasında xüsusi xidmətləri olduğunu diqqətə çatdıran nazir şəxsi heyətin ictimai asayişin qorunmasında və ictimai təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirakını, yüksək peşəkarlığa, döyüş və mənəvi-psixoloji hazırlığa malik bir quruma çevrildiyini məmnunluqla qeyd edib.

O, eyni zamanda bildirib ki, torpaqlarımızın 20 faizi işğal altında olduğuna görə hazırda ölkəmiz müharibə şəraitindədir. Ona görə də Daxili Qoşunların şəxsi heyəti öz üzərlərinə düşən xidməti vəzifələri ilə bərabər həm də torpaqlarımızın azadlığı və ərazi bütövlüyümüzün bərpası üçün hər an hazır olmalı, döyüş hazırlığı səviyyələrini daim yüksək saxlamalıdırlar.

Şəxsi heyətə konkret tapşırıq və tövsiyələrini verən Daxili İşlər naziri hərbi qulluqçuların qanunvericiliklə müəyyən edilmiş vəzifələrin və verilən tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcəklərinə, xalqa, dövlətə və Prezidentə sədaqətlə xidmət edəcəklərinə əminliyini ifadə edib, xidmətdə fərqlənən hərbi qulluqçuların mükafatlandırılması ilə bağlı müvafiq göstəriş verib.

Sonra Daxili İşlər naziri V.Eyvazovun rəhbərliyi ilə hərbi hissənin qərargahında komandir heyəti ilə əməliyyat müşavirəsi keçirilib.

Tədbirin sonunda general-polkovnik V.Eyvazov hərbi hissənin əsgər yeməkxanasında şəxsi heyətlə birlikdə nahar edib.

*19 avqust 2019-ci il.*



# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Respublikanın Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov avqustun 20-də Beynəlxalq Qırmızı Xaç Komitəsinin Azərbaycan nümayəndəliyinin rəhbəri xanım Elena Aymone Sesseranı qəbul etmişdir.**

Qonaqları salamlayan nazir daxili işlər orqanları ilə Beynəlxalq Qırmızı Xaç Komitəsi arasında əməkdaşlığın razılaşdırılmış Tədbirlər Planı və Azərbaycan Respublikası Prezidentinin 2 iyun 2000-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş Sazişə əsaslandığını xatırladaraq mövcud əlaqələrin inkişafını yüksək qiymətləndirmişdir.

Cənab Vilayət Eyvazov qeyd etmişdir ki, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, qanunçuluğun möhkəmləndirilməsi, ona riayət olunması ölkəmizdə və o cümlədən DİN-də aparılan davamlı islahatların prioritet istiqamətlərindən olmaqla, bu sahədə bir sıra əməli tədbirlər həyata keçirilmişdir. Belə ki, qəbul olunmuş yeni normativ sənədlərdə saxlanılan şəxslərin hüquqlarının müdafiəsi, hüquqi yardımdan istifadə edilməsi, şikayət və təkliflərin yuxarı instansiyalara verilməsi, habelə hüquq-müdafiə təşkilatlarının nümayəndələri və müstəqil ekspertlərlə maneəsiz görüşmək qaydaları və imkanları öz əksini tapmışdır. Eyni zamanda, saxlama yerlərinin fəaliyyətinin beynəlxalq normalara uyğun təkmilləşdirilməsi, saxlanılan şəxslərin hüquqlarının qorunması, onların saxlanma şəraitinin yaxşılaşdırılması istiqamətində konkret tədbirlər həyata keçirilmişdir. Qeyd olunmuşdur ki, DİN-in orqan və hissələrində fəaliyyət göstərən müvəqqəti saxlama yerlərinin demək olar ki, hamısında mövcud təlimatın tələblərinə və müasir standartlara uyğun əsaslı təmir işləri aparılmış, hamısı video nəzarət və təhlükəsizlik avadanlıqları ilə təmin olunmuşdur.

General-polkovnik Vilayət Eyvazov demişdir ki, Beynəlxalq Qırmızı Xaç Komitəsinin ölkəmizdəki nümayəndəliyinin xətti ilə 2003-cü ildən etibarən polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları üçün müxtəlif mövzular üzrə seminar və təlimlər keçirilmiş, bu təlimlərdə 700-dən artıq əməkdaş iştirak etmişdir. O da qeyd olunmuşdur ki, korrupsiya hüquqpozmalarına şərait yaradan halların aradan qaldırılması, o cümlədən məmur-vətəndaş münasibətlərinin minimuma endirilməsi məqsədi ilə Daxili İşlər Nazirliyi tərəfindən vətəndaşlara 28 istiqamət üzrə elektron xidmət göstərilir.

Səmimi qəbula və ətraflı məlumata görə nazir V.Eyvazova minnətdarlığını bildirən xanım Elena Aymone Sessera rəhbərlik etdiyi qurumun azadlıqdan məhrum etmə yerlərində apardığı işlər, keçirilən təlim kursları, eləcə də ölkəmizdə görəcəyi işlər barədə məlumat vermiş, Daxili İşlər Nazirliyi ilə əməkdaşlığın daha da genişlənməsində maraqlı olduqlarını qeyd etmişdir.

*20 avqust 2019-cu il.*

# AZƏRBAYCAN RESPUBLİKASININ VERGİLƏR, DAXİLİ İŞLƏR NAZİRLİKLƏRİ VƏ BAŞ PROKURORLUĞUN MƏTBUAT XİDMƏTLƏRİNİN MƏLUMATI

Son dövrlər vergi yoxlamalarının ümumi sayının azalmasına baxmayaraq, Vergilər Nazirliyi vergidənyayınma ehtimalı yüksək olan hallarda vergi nəzarəti tədbirləri həyata keçirir.

Növbəti belə tədbirin Lerik rayonunda fəaliyyət göstərən "Relaks" istirahət və turizm mərkəzində cari il avqustun 16-da keçirilməsi planlaşdırılmışdır. Nəzarət tədbirinin həyata keçirilməsinə istirahət mərkəzindən dövlət büdcəsinə ödənilən vergilərin kəskin şəkildə azalması səbəb olmuşdur. Belə ki, faktiki sahəsi 14 hektardan çox olan və qonaqların qalması üçün 142 nömrədən ibarət istirahət mərkəzində müxtəlif təyinatlı 20 obyektin fəaliyyət göstərməsinə baxmayaraq, 2018-ci ildə cəmi 10 min 726 manat, 2019-cu ilin ötən dövrü ərzində isə 972 manat məbləğində vergi ödənilmişdir. Bundan başqa, "Relaks" istirahət mərkəzi vahid idarəetmə sisteminə malik olmasına baxmayaraq, vergidənyayınma məqsədi ilə buradakı obyektlər ayrı-ayrı vergi ödəyicilərinin adına rəsmiləşdirilmiş, bir sıra obyektlər vergi orqanında uçota alınmadan fəaliyyət göstərmişlər.

İstirahət mərkəzində fəaliyyət göstərən vergi ödəyicilərinə vergi qanunvericiliyinin tələblərinə əməl olunmasının zəruriliyi, mövcud çatışmazlıqların və vergidənyayınma hallarının aradan qaldırılması haqqında dəfələrlə xəbərdarlıq edilsə də, buna məhəl qoyulmamışdır.

Bu səbəbdən real vergi potensialının müəyyən edilməsi məqsədilə Vergilər Nazirliyinin 6 saylı Ərazi Vergilər İdarəsi tərəfindən istirahət mərkəzində fəaliyyət göstərən vergi ödəyicilərinə məxsus obyektlərdə xronometraj və digər operativ vergi nəzarəti tədbirlərinin həyata keçirilməsi barədə qərar qəbul edilmişdir.

Avqustun 16-da nəzarət tədbirlərini həyata keçirmək üçün təsərrüfat subyektinə gələn Vergilər Nazirliyinin əməkdaşları burada müqavimətlə üzləşmiş, onlara qanuni fəaliyyətini həyata keçirlməsinə maneələr törədilmişdir. Aparılmış izahat və məlumatlandırma tədbirlərinə, yoxlamanın keçirilməsi barədə müvafiq qərarların təqdim edilməsinə baxmayaraq, vergi əməkdaşlarının əraziyə daxil olmasına imkan verilməmişdir. Hadisə yerinə gəlmiş Lerik rayon Polis Şöbəsinin əməkdaşlarının, eləcə də Lerik Rayon İcra Hakimiyyəti nümayəndələrinin də məsələyə müdaxiləsi müsbət nəticə verməmiş, istirahət mərkəzinin vəzifəli şəxsləri kimi özünü təqdim etmiş şəxslər vergi əməkdaşları və polis işçilərinə hücum təşkil edərək onlara müxtəlif xəsarətlər yetirmiş, bundan başqa, Vergilər Nazirliyinin xidməti istifadəsində və nazirlik əməkdaşlarının şəxsi istifadələrində olan avtomaşınlara daş parçaları ilə zədələr yetirmişlər.

Həmin faktla bağlı cinayət işi başlanmış, təcrübəli polis və prokurorluq əməkdaşlarından ibarət istintaq qrupu yaradılmış, eləcə də Baş Prokurorluğun, Vergilər və Daxili İşlər nazirliklərinin vəzifəli şəxsləri rayona ezam olunmuşlar.

Hadisə ilə əlaqədar Daxili İşlər Nazirliyi və Baş Prokurorluq tərəfindən vəziyyət dərhal nəzarətə götürülmüş, operativ tədbirlər həyata keçirilməklə ictimai asayiş bərpa olunmuş, vergi əməkdaşlarının "Relaks" istirahət mərkəzində vergi nəzarəti tədbirinin keçirilməsinə zəruri şərait təmin edilmişdir.

Cinayət işi üzrə kriminalistik texniki vasitələrdən istifadə olunmaqla hadisə yerinə foto və videoçəkiliş aparılmaqla baxış keçirilmiş, hadisələrin baş vermə məkanı fiksasiya olunmuş, maddi sübutlar götürülmüş, hadisənin şahidləri müəyyənləşdirilərək dindirilmiş, məhkəmə-tibbi, məhkəmə-əmtəəşünaslıq, məhkəmə-trasoloji ekspertizalar təyin edilmişdir.

İş üzrə istirahət mərkəzinin təşkilati-sərəncamverici və inzibati funksiyaları yerinə yetirən vəzifəli şəxsləri - Nərimanlı Mirhəmid İqbal oğlu, Nərimanlı Orxan Çingiz oğlu, Əsgərov Pərviz Əvəzoviç, İmanov Famil Kamran oğlu, Şahverdiyev Rahim Bəhlul oğlu və Abbasov Amir Nağızadə oğlu Cinayət Məcəlləsinin 309.2 (vəzifə səlahiyyətlərini ağır nəticələrə səbəb olmaqla aşma) və 315.2-ci (hakimiyyət nümayəndələrinə həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir.

Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində cinayət işi üzrə bütün xüsusatların, əməllərində cinayət tərkibi olan şəxslərin dairəsinin müəyyənləşdirilməsi istiqamətində kompleks istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Hazırda "Relaks" istirahət və turizm mərkəzində bütün obyektlər normal fəaliyyət göstərir, qonaqlar rahat şəkildə istirahət edir, eyni zamanda vergi nəzarəti tədbirləri adi rejimdə aparılır

# GÖZÜ YOLDA QALAN... QUBADLI

**Təbiətin bir qədər sərt, şıltaq qucağı yurd olmuşdu Qubadlıya. Amma yalçın qayalarda, sərt dağlarda daşlaşmış tarix yaşayırdı. Torpaqdan boy atan, dünyaya boylanan neçə-neçə saz-söz nəhənginin vəsfinə belə sığmamışdı Qubadlının daşlaşmış sərvətləri.**

Bu məskənin söz boğçasından – minlərlə ləl-incinin xəzinəsindən bəhrələnən, düzülən-qurulan ədəbi əsərlər söz yadigarımızdır, ədəbiyyatımızın dədə Süleyman ünvanlı söz azmanlarıdır. Əsrlərdən ötən yellərə qaya kimi sinə gərən türbələr, əcdadlarımızın əl izlərini yaşadan daş salnamələr, tarixi nişangahlar bu yurdu təzə ayaq basanlar üçün daha da sirli-sehrli edirdi. Məbədlər diyarının insanları xalqımızın ən qədim, ən yaxşı ənənələrini yaşadardılar. Xəyanət kəlməsi onlara yad idi. Ancaq namərd qonşuların, bir də sapı özümüzdən olan baltaların xəyanətinə rast gəldilər.

İyirmi altı il əvvəl Xankəndində ilk "miatsum" deyib çığıranda o vaxtkı respublika rəhbərliyinin lazımi qətiyyət göstərmədiyindən, hətta baş verənləri xalqdan gizlətmək mövqeyi tutduğundan düşmənlərimiz da şirnikdilər. İllərlə fürsət gözləyənlər işğalçılıq məqsədlərini daha da genişləndirərək bütün sərhədboyu rayonlarımıza daraşdılar.

İlk soydaşlarımız şəhid olduqdan sonra yurd-yerlərimiz yavaş-yavaş düşmənin qanlı caynağına keçdi. Xalq qəzəbinin dalğasında hakimiyyətə gələn AXC-Müsavat cütlüyü də qəti mövqe göstərə bilmədi. Başı talana qarışan, peşəkarlıqdan uzaq, heç bir dövlətçilik təcrübəsi olmayan məmurların var-dövlət, kürsü... davası son nəticədə vətəndaş qarşıdurmasına gətirib çıxardı. Biri-birinin ardınca kəndlər, qəsəbələr, daha sonra isə respublikanın ərazi etibarilə ən böyük bölgələrindən olan Kəlbəcər, Ağdərə işğal olundu. Artıq Ağdamın da əsas strateji yüksəklikləri, müdafiə əhəmiyyətli mövqeləri ordudakı başıpozuqluq ucbatından düşmən əlinə keçmişdi. Respublikamız belə bir taleyüklü problemlərlə üz-üzə qalanda dünənki "millət fədailəri" tez-tələsik istefalar verib, vəzifələrini dondursalar da xalq öx təkidli tələbi ilə ümummilli liderin Heydər Əliyevi ali hakimiyyətə dəvət etdi.



Bu siyasət dühasına qalan miras son dərəcə acınacaqlı idi. Ölkə daxilində vatandaş qarşıdurması yaranmış, qan tökülmüşdü. Şimalda və Cənubda baş qaldırmış separatizm təhlükəli həddə çatmış, silahlı qarşıdurma halına gəlib çıxmışdı. Bir sözlə, ölkə parçalanmaq həddində idi. Cəbhədə dönüş yaratmaq üçün belə qısa vaxtda nizami ordu təşkil etmək çox çətin idi. Yaranmış fürsətdən istifadə edib hücumlarını genişləndirən Ermənistan ordusu avqustun 23-dən 25-dək Füzuli və Cəbrayıl rayonlarını işğal edərək avqustun 31-də mühasirədə qalan Qubadlının süqutuna nail oldu.

Ayrı-ayrı siyasi partiyalara xidmət edən başıpozuq hərbi birləşmələr düşmənə müqavimət göstərmədən Qubadlını tərk etdilər. Müdafiəsiz qalan rayon sakinləri böyük əzmkarlıq göstərərək yerdən-göydən od ələyən düşmənin mühasirə həlqəsindən çıxa bildilər. Döyüşlərdə 238 nəfər şəhid oldu.

İndi respublikanın 47 rayonunda məskunlaşmış 30 min rayon sakininin güzəranının yaxşılaşması üçün ölkə rəhbərliyi böyük diqqət və qayğı göstərir. El-obasından didərgin düşən soydaşlarımızın hamısı kimi Qubadlı sakinləri də dövlət başçımızın torpaqlarımızın düşməndən azad edilməsi üçün göstərdiyi yorulmaz səylərə böyük ümid bəsləyirlər.

*Ə. Ruhiyyə*

# GÖRÜŞ YERİ DƏYİŞMİR "ASAYİŞİN KEŞİYİNDƏ"




*Daha bir nömrəsi işıq üzü görən "Asayişin keşiyində" bu dəfə bayram ab-havası ilə oxucuların görüşünə gəldi. Cümhuriyyətimizin yaşıdı və yadigarı olan Azərbaycan Polisinin keçdiyi keşməkeşli, bir o qədər də qürur dolu qəhrəmanlıq tarixinə yenidən nəzər salıb üzünü gəncliyə və gələcəyə tutdu.*

*Hələ yaşı bir qərinə olmayan müstəqil dövlətimizin ictimai-siyasi həyatı, beynəlxalq əlaqələri, diplomatik uğurları barədə qısa zamanda çevrəmizə topladığımız oxuculara-sizlərə bir daha hesabat verdik, əziz həmkarlarımız. Necə ki, 85 ildən çoxdur ki, sizlərin tribunası olan "Mübariz keşikdə"ni yaşadır, yeni imzalarla onu daha da oxunaqlı edir, hər həftə görüşünüzə tələsir, veteranlarımızın ünvanına yollanırıq.*

*Bu ötən müddət ərzində özümüzü tanıda bilmişikmi? Burasını bilmirik. Bildiyimiz odur ki, Azərbaycan adına imza atılan hər bir uğurlu layihəyə, onu daha da möhkəmləndirəcək ideya ətrafında Vətən oğullarını birləşdirən çağırışa "Asayişin keşiyində"kilər də səs verdilər.*

*Sayımızı on milyona çatdıran, ölkə Prezidentindən xeyir-dua alan Azərbaycanın on milyonuncu sakininin də atasının polis olduğunu bölüşmək sevinci bizim də payımıza düşüb. Azərbaycan Polisinin 101 yaşı və Polis Akademiyasında növbəti məzun günü münasibətilə keçirilən möhtəşəm tədbirlər səhifələrimizdə yer aldı.*

*Təkcə DİN üçün deyil, bütün ölkəmiz üçün gərəkli və qürurverici kadr dəyişiklikləri, bunu tarixiləşdirən sənədlər, ali göstərişlər barədə məlumatları da layiqli şəkildə oxucularımıza çatdırmağa çalışmışıq. Bunu da "Mübariz keşikdə" ilə əl-ələ, çiyin-çiyinə etmişik.*

*Sıralarını vətənpərvər, andına sadiq, savadlı gənclərlə genişləndirən və möhkəmləndirən polisin əsrimizin tələblərinə cavab verməsi üçün ölkə və DİN rəhbərliyi tərəfindən yaradılan şəraiti gözlər önündə sərgiləyir, polisin digər görəvləri kimi, təbiətə qayğısının da vəzifə borcu, həm də vətəndaş yanğısı olduğunu göstərir.*

*Bakı küçələrində "sürət həddini aşıb" qələbə uğrunda mübarizə aparmaq üçün ölkəmizə gələn idmançıların, eləcə də "SOCAR Azərbaycan Qran-Prisi" yarışlarının təhlükəsilziyini yüksək səviyyədə təmin edənləri tarixin yaddaşına həkk etmək üçün səfərbər olduq, "silahımızı"-qələmimizi korşaltmadıq.*

*Başımıza gətirilən faciələrə şahidlik edən Xan çinarla Göyçayda dərdləşib dərdini yazıya köçürdük ki, gələcək nəsillərə ibrət olsun. Veteranlarımızı unutmuruq, çünki unutsaq, unudularıq...*

*Sözün Nəsimi zirvəsindən dünyaya boylanıb "biz bu cahana sığmazıq",-dedik...*

*Etibarı və etimadı doğrultmaq üçün "Asayişin keşiyində" mətin dayanmışıq və bundan sonra da dayanmalıyıq. Mətin dayanmalıyıq ki, "Qarabağ küçəsindən-Şuşaya", Laçına, Kəlbəcərə, Xocalıya, Xankəndinə... gedən yollarımızda ayağımız büdrəməsin, önümüz açıq, sıramız, beləcə, daha da möhkəm və dəyanətli olsun...*

# DAXİLİ İŞLƏR NAZİRLİYİ VƏ RESPUBLİKA BAŞ PROKURORLUĞUNUN MƏTBUAT XİDMƏTLƏRİNİN MƏLUMATI

Polis və prokurorluq orqanlarının əməkdaşları tərəfindən peşəkarlıqla həyata keçirilmiş istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində törədilmiş qətlin üstü "isti izlər"lə açılmışdır.

Belə ki, avqustun 18-i Şəmkir rayonu, Sarıtəpə kənd sakini İlqar Məsimovun evində yanğın baş verməsi nəticəsində 2017-ci il təvəllüdlü Nicat Sadıqovun meyitinin aşkar olunması faktı ilə bağlı daxil olmuş məlumat əsasında dərhal polis və prokurorluq orqanlarının əməkdaşlarının iştirakı ilə hadisə yerinə baxış keçirilmişdir.

Həyata keçirilmiş təxirəsalınmaz istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində Şəmkir rayon sakini 1986-cı il təvəllüdlü Elmar Sadıqovun avqustun 18-i gecə saat 03:00 radələrində qayınatası İ.Məsimovun evinə daxil olaraq ailədaxili narazılıqlarla bağlı müvəqqəti olaraq ondan ayrılaraq yaşayan 1995-ci il təvəllüdlü həyat yoldaşı Mətanət Məsimovanı öldürmək məqsədilə özü ilə gətirdiyi benzini yatmış halda olan qayınanası 1964-cü il təvəllüdlü Səltənət Məmmədova və M.Məsimovanın üzərinə, eləcə də evin içərisinə tökərək yandırmasına, nəticədə həmin vaxt evdə olan E.Sadıqovun yatmış azyaşlı oğlu 2017-ci il təvəllüdlü Nicat Sadıqovun ölməsinə, M.Məsimova və S.Məmmədovanın isə müxtəlif dərəcəli yanıq xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmələrinə səbəb olmasına kifayət qədər əsaslı şübhələr müəyyən olunmuşdur.Faktla bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1 (qəsdən adam öldürmə), 120.2.4 (xüsusi amansızlıqla adam öldürmə), 120.2.9(təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı öldürmə), 29, 120.2.7( iki və ya daha çox şəxsi öldürməyə cəhd) maddələri ilə cinayət işi başlanmışdır. İş üzrə hadisənin şahidləri müəyyənləşdirilərək dindirilmiş, müvafiq ekspertizalar təyin edilmişdir.

Aparılmış əməliyyat-axtarış tədbirləri nəticəsində E.Sadıqov tutularaq istintaqa cəlb olunmuşdur.

E.Sadıqov şübhəli şəxs qismində saxlanılaraq dindirilmiş və o, ilkin ifadəsində törətdiyi cinayət əməlini tam etiraf etmişdir.

Hazırda cinayət işi üzrə zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

*18 avqust 2019-cu il.*

# ONLARI QORUYAQ!

**Gənc nəslin tərbiyəsi yaşadığı mühitlə, ünsiyyətdə olduğu insanlarla, təlim-tərbiyə aldığı pedaqoji kollektiv, ən vacibi isə böyüyüb başa çatdığı ailəsi ilə sıx bağlıdır. Ölkənin inkişafı haqqında fikir söyləmək üçün həm də cəmiyyətdə ailənin vəziyyətinə və dövlətin ailəyə münasibətinə nəzər salmaq lazımdır. Ailənin əmin-amanlığı ölkənin tərəqqi və inkişaf meyarıdır. Təlim-tərbiyə isə insan psixologiyasını formalaşdıran mühüm amillər sırasındadır, çünki uşaqların fərqli olan baxışları, qavrayışı, nitqi məhz ailədə, məktəbdə və cəmiyyətdə təşkil olunan tərbiyə əsasında formalaşır.**

ABŞ-ın Milli Ruhi Sağlamlıq İnstitutu 21 yaşından yuxarı olan və özlərini «cəmiyyətin dəyərli və faydalı üzvləri kimi göstərən» övladlar böyütmüş uğurlu valideynlər arasında keçirilən sorğunun nəticəsini dərc etdirmişdir. Həmin valideynlərə belə bir sualla müraciət olunmuşdur: "Siz şəxsi təcrübəniz əsasında başqa valideynlərə ilk növbədə nə tövsiyə edərdiniz" Cavabların çoxu belə olmuşdur: "Məhəbbətinizi əsirgəməyin", "Ağılla cəzalandırın", "Asudə vaxtlarınızı birgə keçirin", "Uşaqlarınıza yaxşını-pisdən ayırmağı öyrədin", "Qarşılıqlı hörmət aşılayın", "Diqqətlə dinləyin", "Uzun-uzadı nəsihətlərdən qaçının" və "Realist olun".

Yetkinlik yaşına çatmayanların hüquq haqqında tədbirlər gücləndirilməsi nəzərdə tutulmuşdur.

Cinayət məsuliyyəti üçün yaş həddinin müəyyən edilməsi, Uşaq Hüquqları üzrə BMT Konvensiyasının tələb etdiyi kimi, "qanun pozuntusuna yol vermiş uşaqların məsuliyyət daşımadığı yaş çərçivəsinin müəyyən edilməsi" üzrə 40 (3a) saylı maddəsinə uyğundur. Baxmayaraq ki, Uşaq Hüquqları üzrə Komitə cinayət məsuliyyəti üçün yaş həddinin 18-ə bərabər olmasını təklif etmişdir, 14 yaş "emosianal, mental və intellektual kamilliyin nəzərə alındığı" halda cinayət məsuliyyətinin çox aşağı səviyyədə müəyyən edilməsinə qarşı olan Pekin Qaydalarına (qayda 4.1) müvafiqdir. Buna baxmayaraq, real olaraq, Azərbaycanda cinayət yaşına çatmayanlar gəlir.

Statistika son illər sərxoş vəziyyətdə cinayət törətmiş uşaqların sayının azaldığını göstərir. Yetkinlik Yaşına Çatmayanların Məcburi Tərbiyə Müəssisəsində uşaqlara gündə bir saat kompüterdə işləmək öyrədilir, onlarla tərbiyəvi, psixoloji söhbətlər aparılır, peşə vərdişləri aşılanır. Uşaqlar burda məktəbə də gedirlər.

Araşdırmalar göstərir ki, yetkinlik yaşına çatmayan qanun pozucuları arasında ən çox törədilən cinayət oğurluqla bağlıdır. Rəsmi statistikada hər il 150-dək yeniyetmənin oğurluq etdiyi göstərilir. Bu kateqoriyadan olan şəxsllərin törətdiyi ikinci ən çox cinayət xuliqanlıqdır. Hər il 50-dən çox yeniyetmə xuliqanlıq, 20-dən çox uşaq isə soyğunçuluq etdiyinə görə saxlanılır. Yetkinlik yaşına çatmayanların törətdiyi cinayətlər sırasına qəsdən adam öldürmə və adam öldürməyə cəhd, qəsdən sağlamlığa ağır zərər vurma, zorlama və zorlamaya cəd, dələduzluq, narkotik vasitələrin al-satqısı, istifadəsi və daşınması, hərəkətin təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması da daxildir. Yeri gəlmişkən, tərbiyəsində məktəblərin, pedoqoji müəssisələrin, uşaq təşkilatlarının, kitabxanaların xüsusi rolu vardır. Məhz bu kollektivlərin həyata keçirdikləri tədbirlər nəticəsində onlarda cəmiyyət hadisələri haqqında xüsusi təsəvvür yaradılır və beləliklə, uşaqlarda həyat hadisələrinə düzgün yanaşmaq, reallıqları qiymətləndirmək bacarığı inkişaf edir. Yaş artıqca yeniyetmələrdə hüquq normalarını öyrənməyə maraq da güclənir. Bu psixoloji meyl, əsasən, VII – IX sinif şagirdləri üçün səciyyəvidir.

Yetkinlik yaşına çatmamışların cinayətkarlığına qarşı mübarizəni gücləndirmək, bu sahədə görülən işlərin səmərəliliyini artırmaq məqsədi ilə Nazirlər Kabineti 6 mart 1995-ci il tarixdə "Azərbaycan Respublikasında yetkinlik yaşına çatmamışların cinayətkarlığına qarşı mübarizə" üzrə Respublika Kompleks proqramı haqqında qərar qəbul etmişdir. Bu qərara əsasən, ən çox yetkinlik yaşına çatmamış uşaqların aludə olduğu dövriyyədə olan narkotik vasitələrlə mübarizənin gücləndirilməsi məsuliyyəti üzrə yaş həddi daha aşağıdır. On dörd yaşınadək cinayət tərkibli qanun pozuntusuna yol vermiş uşağa Yetkinlik Yaşına Çatmayan Şəxslərin İşlər üzrə Komissiyası tərəfindən sanksiya tətbiq edilə bilər. Amma o, cinayət məsuliyyəti daşımır. Eyni zamanda, Cinayət Məcəlləsinin 22-ci maddə ilə əhatə edilməyən cinayət törətmiş 14-16 yaş arasında uşaq da cinayət məsuliyyəti daşımır. Lakin buna baxmayaraq, onların məsələləri Yetkinlik Yaşına Çatmayan Şəxslərin İşləri üzrə Komissiyaya verilə bilər və uşaq qanunsuz əməlinə görə inzibati cəzalar və sanksiyaların subyekti ola bilər.

Dövlət Statistika Komitəsinin məlumatında qeyd olunub ki, hər il 20 nəfərdən çox 14-17 yaşlı qız cinayət törətmiş şəxs kimi hüquq-mühafizə orqanlarında qeydə alınır. Rəsmi statistik məlumatlarda bildirilir ki, yetkinlik yaşına çatmayan məhkumlar arasında hər iki valideyni olan ailələrdə böyüyən uşaqlar üstünlük təşkil edirlər. Sonrakı yerlərdə bir valideyni olan və ailədənkənar (internatlarda, uşaq evlərində) yaşayan yetkinlik mütəxəssislər hesab edirlər ki, 14-17 yaşlı uşaqlar arasında cinsi xarakterli cinayətlərə meyl məlumatsızlıqdan irəli gəlir. Ailələrdə, məktəblərdə uşaqlara bu kimi davranışlar öyrədilmədiyi üçün uşaqlar öz hisslərini, maraqlarını hansısa üsulla ödəmək üçün müxtəlif cinayətlərə əl atırlar.

Azərbaycan məhkəmələrinin yetkinlik yaşına çatmayan məhkumlara tətbiq etdiyi əsas cəza növləri azadlıqdan məhrumetmə, islah işləri, ictimai işlər, cərimələr və şərti məhkum etmədir.

Uşaqların hüquq pozuntusuna yol verməməsi üçün ailədə, məktəblərdə maarifləndirmə tədbirləri gücləndirilməli, ictimai yerlərdə qabaqlayıcı profilaktik aksiyaların sayı artırılmalıdır. Ümumiyyətlə, gələcəyimizdən nigaran olmamaq üçün valideynlərin, pedoqoqların, sosial işçilərin, psixoloqların, polisin və digər dövlət qurumlarının fəal olması əsas şərtdir.

***Natiq Şahverdiyev,***
***polis kapitanı***

# LAYİQLİ XİDMƏT ÜZ AĞARDAR

Bakı şəhər sakini Orxan Monsumov yollarda hərəkətin təhlükəsizliyini qoruyan, sürət həddini aşan, avtomobili sərxoş və sənədsiz idarə edənlərlə mübarizə aparan həmkarlarımıza minnətdarlığını ifadə edir. Bakı şəhər sakini Vəliağa Vəlizadə və Şabran rayon sakini Etibar Kamilov isə yolda köməksiz vəziyyətdə qalarkən onların dadına çatan Yol Patrul Xidməti əməkdaşlarına təşəkkür edirlər. Elyana Əliyeva özünü təhlükəyə ataraq nəvəsi Əmrah Əliyevin həyatını xilas etdiyinə görə Yol Patrul Xidmətinin əməkdaşı, polis baş serjantı Elman Təhməzova minnətdarlıq edir.

Ailəlikcə maşına əyləşib sürət həddini aşan, "Allah qoruyar", -deyib avtomobili edilən işin öhdəsindən gəlib, özünü doğruldub. O, DİN-in "Əla xidmətlərə görə" döş nişanına layiq görülüb. Deyir ki, yol hərəkəti haqqında qanunvericiliyi əzbərdən bilən təcrübəli sürücülər var. Əslində, müsbət haldır. Həm özü maariflənən, həm də polisin sükan arxasında mənzil başına salamat çatmaq üçün tələblərinə əməl edənlər özlərinin və başqalarının həyatını təhlükəyə atmırlar. Bu gün, təəssüf olsun ki, sosial şəbəkə ulduzları olmaq, "polisi susduran oğlan" imici qazanmaq istəyənlərə də rast gəlirik.

"Dəfələrlə olub ki, avtomobili sərxoş vəziyyətdə idarə edən sürücü saxlamışıq. Ailəsinin yanında hətta bizə qarşı kobudluq edənlər də olub. Buna baxmayaraq, biz

**"Yol polisi ləğv olunur." Mövzunu geninə-boluna çək-çevir edib hərə öz öncəgörməsini həqiqət kimi sırımağa çalışdı. "Axır ki", "Canımız qurtardı", "Bu da son" yazıb təkcə yol polisinə deyil, bu sözlərlə polisə nifrətini, kinini bildirənlərə cavab vermək üçün Sabirin, Seyid Əzimin, Mirzə Cəlilin çağdaşımız olmasını arzuladım...**
**Yol polisi olmasa dünya dağılmaz, amma yollar dağılar...**

dinimizin haram buyurduğu, yəni içkili halda idarə edən bizlərə baş verə biləcək qəzadan sağ qurtulmaq üçün təhlükəsizlik kəmərini taxmağı məsləhət görən polisimizi niyə bəzilərimiz düşmən gözündə görürük. Bunları həm də ona görə yazdım ki, müasir texnologiyanın bəzən aciz qaldığı məqamlarda yenə də peşəkar kadrlar qarşıya çıxan çətinliklərin öhdəsindən layiqincə gəlir, köməyə çatır, həyat qurtarırlar...




Müşfiq qəsəbəsi yaxınlığındakı stasionar posta çatmamış 13-14 yaşlarında dörd-beş uşağı polis baş leytenantı saxlamışdı və əli ilə şütüyən maşınları göstərib nəsə deyirdi. Bir az yaxına gələndə "Bu yolda velosiped sürmək təhlükəlidir, hər an qəza baş verə bilər. Valideynləriniz arxayındır ki, siz məhəllədə velosiped sürürsünüz. Məktəbə az qalıb, dərslərinizi təkrarlayın ki, sonra çətinlik çəkməyəsiniz" fikrini polis baş leytenantı elə yanğı ilə deyirdi ki....

Yol Patrul Xidməti Alayı 3-cü taqımının **yol patrul xidməti baş insapektoru, polis baş leytenantı Rüfət Quliyev** 1982-ci ildə Cəbrayılda doğulub. İşğaldan sonra Bakıya pənah gətiriblər. Azərbaycan Texniki Universitetini bitirib. 2006-cı ildən daxili işlər orqanlarına qəbul olunub. İlk xidmət yeri Bakı-Quba yolunda təhlükəsizliyi təmin edən Yol Patrul Xidmətinin II taqımı olub. Həvalə səbr, təmkin nümayiş etdirib onu ailəsi ilə birlikdə digər avtomobillə evinə yola salmışıq. Ertəsi gün bizə yaxınlaşıb və üzrxahlıq edib" deyən həmkarım bu illər ərzində müşahidələrinin nəticəsi olaraq onu da əlavə edir ki, avtomobili idarə edənlərin arasında orta nəslin nümayəndələrinin peşəkarlıq səviyyəsi daha yüksəkdir. Gənclərə gəlincə, baş verən qəzalara nəzər yetirmək kifayətdir...

Bura turistlərin də mütəmadi hərəkət etdiyi yoldur. Hər hansı çətinliklə üzləşəndə dəfələrlə həmkarlarımıza müraciət ediblər. Xoş qarşılanıb, səmimiyyət görüblər...

"Əməkdaşımızdan razı qaldınızmı",-deyəndə müsahibim taqım komandiri, polis mayoru Mərdan Mehdiyevlə mənim üzümə baxdı. Bir anlıq duruxsa da, onun narahatçılığına son qoydum: "Xidmətdə özünü doğruldan, rəhbərliyin etimadını qazanan əməkdaşlardan biri haqqında yazı hazırlamaq üçün komandirə müraciət etmişdim. O də sizin adınızı birinci çəkmişdi, ancaq digər əməkdaşlar-polis baş leytenantı Abdulla Zeynalov, polis baş serjantları Tural Əliyev, Fariz Hümbətov, polis serjantları Rəşad Əsgərov və Tural Məmmədov barəsində də xoş sözlər deyib, onları layiqli əməkdaş kimi qəzetimizin gələn nömrələrində işıqlandırmağı xahiş etmişdi".

***Hafiz Təmirov,***
***polis mayoru***

# MARAQ DÜNYASI

### MƏHKƏMƏDƏN REKORD QƏRAR

Böyük Britaniyanın gənc vətəndaşı dünyada ən qısamüddətli həbs cəzasına məhkum edilib. Şimali Somerset əyalətinin Portished şəhərinin 23 yaşlı sakini məhkəmə tərəfindən tarixdə ən tez həbs cəzası alıb.

Təqsirini etiraf edən Şeyn Cenkins hərəkətindən peşman olduğunu bildirib. O, öz sevgilisinin evinin pəncərəsini süpürgə ilə sındırıbmış. Cenkins onu yaxalamaq istəyən polislərə də hücum edib. Həmin vaxt onun alkoqol və narkotik maddələrin təsiri altında olduğu bildirilir.

Müttəhim hakimin qarşısında iki məktub oxuyub və əməllərinə görə həm sevdiyi qızdan, həm də qanun keşikçilərindən üzr istəyib.

Hakim müttəhimin 50 dəqiqə həbs cəzası çəkməsi, amma 80 saat islah işləri və reabilitasiya keçməsi barədə qərar çıxarıb.

### ARXEOLOQLAR KRIMIN SİRRİNİ AÇIRLAR

Krım Atlantidasında hansı sirlər mövcuddur? Arxeoloqlar bildirirlər ki, Akra şəhərinin qalıqlarının 90 faizi suyun altında, 10 faizi isə quruda qalıb. Onlar şəhərin quru hissəsində qazıntılara başlayıblar, suyun altında isə ekspedisiya gələn il təşkil ediləcək.

Qədim yaşayış məskəninin arxeoloji tədqiqatı 1982-ci ildə başlayıb. Həmin il Krımın sakinlərindən biri Akranın quru hissəsində çoxlu sayda qədim sikkə tapıb. O vaxt təşkil edilən ekspedisiya müəyyən edib ki, şəhərin böyük bir hissəsi suyun altında qalıb. Alimlər tarixi mənbələrə istinadla müəyyən ediblər ki, Akranın əsasını Bosfor dövlətləri-Nimfeya və Pantikapeyanın sakinləri qoyublar. Bu şəhər Takil burnunun şimal-şərq hissəsini əhatə edib və IV əsrin əvvəllərinə qədər Bosfor dövlətinin tərkibində olub. Yeni və köhnə eranın ayrılması dövründə Qara dənizdə suyun səviyyəsinin qalxması nəticəsində Akra 4 metr dənizin altında qalıb.

İndiyədək şəhərin ərazisinin 5 faizini aşkar etmək və orada ilkin tikililər və qüllələrin qalıqlarını tapmaq mümkün olub. İyulun 1-dən avqustun 1-dək davam edən ekspedisiya artıq şəhərin müdafiə istehkamlarının 70 metrini üzə çıxarıb.

### BİZ DƏ GÖZLƏYİRİK...

Merkuri Günəşin qarşısını 2019-cu il noyabrın 11-də kəsəcək. Bu hadisəni saat 16:35-də Azərbaycandan da izləmək mümkün olacaq. Növbəti belə tutulmanı həvəskar astronomlar 2032-ci ildə müşahidə ediləcəyini bildirirlər.

Günəş sistemində Merkuri ən kiçik planetdir və ona ən yaxın məsafədə yerləşir. Peyki yoxdur. Bu planet barədə oraya zond göndəriləne qədər çox az məlumat olub. Mariner-10 kosmik aparatı Merkuriyə çatanda radar və radioteleskopla müşahidələr aparıb. Əvvəllər insanlar elə düşünüblər ki, Merkurinin orbiti və öz oxu ətrafında fırlanması eynidir və 88 gün təşkil edir. Bu, Yerlə Ay arasında olan məsələ kimi idi. Amma oraya siqnallar göndəriləndən sonra məlum olub ki, Merkurinin öz oxu ətrafında fırlanması 58,7 gün təşkil edir və bu, planetin öz orbitinin üçdə ikisi deməkdir.

***Ə.Ruhiyyə***

# POLİS ƏMƏKDAŞLARI SƏRRASTLIQLARINI SINAYIBLAR



**Avqustun 8-dən 10-dək güllə atıcılığı üzrə DİN birinciliyi keçirilib. Atıcılıq tirində gerçəkləşən yarışın əvvəlində DİN İdman Cəmiyyətinin sədr müavini, polis polkovniki Elçin Rüstəmov çıxış edərək - diqqətə çatdırıb ki, həm də Azərbaycan Polisinin xalqa sədaqətlə xidmət etməsi, öz vəzifələrini daim ləyaqətlə yerinə yetirməsinin nəticəsi olaraq hazırda ölkəmiz regionda, həmçinin Şərqi Avropada cinayətlərin sayının azlığı, sabitliyin etibarlı təmini baxımından ən yaxşı göstəriciyə malik dövlətlərdəndir.**



İdman təlimi bölməsinin rəisi, polis polkovnik-leytenantı Mülayim Xıdırov "Polis haqqında" və "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının Qanunu ilə bağlı tədbir iştirakçılarına məlumat verərək, qanunvericilikdən irəli gələn tələblər barədə onları məlumatlandırıb, yarışın qaydaları və təhlükəsizlik tədbirlərini izah edib. Daha sonra yarışa start verilib.

Ərazi polis orqanları, nizami hissə və tədris müəssisələrini təmsil edən ümumilikdə 11 komandadan 80 əməkdaş müxtəlif hərəkətlər üzrə sərrastlıqlarını sınayıblar.

Gərgin keçən yarışlarda iştirakçılar arasında qaliblər müəyyənləşib. Komanda birinciliyində ilk üçlükdə Baş Dövlət Yol Polisi, Əlahiddə Çevik Polis Alayı və DİN Daxili Qoşunlarının Baş İdarəsinin komandaları qərarlaşıb.

Yarışın proqramına daxil olan tabel silahından atəş açmaqda birinci xüsusi tapşırığın yerinə yetirilməsində qadınlar arasında BDYPİ-nin əməkdaşı Fəqanə Kərimova fərqlənib və bu nəticə ilə, 6-cı dəfə DİN birinciliyinin qalibi olub.

İkinci xüsusi tapşırığın yerinə yetirilməsində ƏÇPA-nın əməkdaşı Kəmalə Məhəddinova daha çox xal toplayıb.

BDYPİ-nin təmsilçisi Elməddin Əliyev də birinci və üçüncü tapşırıqları müvəffəqiyyətlə yerinə yetirərək fəxri kürsünün ilk pilləsinə qalxıb.

Kişilər arasında altıncı xüsusi tapşırığın yerinə yetirilməsində BDYPİ-nin əməkdaşı Pərviz Tağıyev ən yüksək nəticəni göstərib.

Kişilər arasında keçirilən avtomatdan hədəfi nişan almaqda BDYPİ-nin daha bir əməkdaşı-Xaləddin Zeynalov da rəqiblərini önləyərək bu yarışda qələbə qazanıb.

Yarışın idarə olunmasında polis polkovnik-leytenantları Elnur Həsənov, Seymur Qurbanbəyov, Ehtiram Babayev, polis mayoru Aydın Həşimov və Dəyanət Ağayev iştirak ediblər.

Sonda qaliblərə medallar, diplomlar, "Fəxri fərman"lar və qiymətli hədiyyələr təqdim olunub.

***Zeyni Hüseynov,***
***polis serjantı***







**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 33,75 manat (iki nəfərlik nömrəni tək tutduqda 52,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 101,25 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 82,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 135 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 165 manat təşkil edir.

4. Üç yaşdan aşağı uşaqlar Mərkəzə qəbul edilmir.

5. 3-6 yaşda uşaqların qalması ödənişsizdir.

6. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

**Daxili İşlər Nazirliyinin "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 1 iyun-15 sentyabr 2019-cu il tarixlərdə mövsüm üzrə qiymətləri**

**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metro stansiyasından 171 nömrəli avtobusla gəlmək olar.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

| 1 iyun - 15 sentyabr 2019-cu il | | |
|---|---|---|
| (2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 270 manat, bir nəfər tək qaldıqda 210 manat) | | |
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 33,75 manat | 52,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 67,50 manat | 105 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 30 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 135 manat | 210 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 60 manat | |

İsveçin Eskilstuna şəhərində dilənçiliklə mübarizənin yeni üsulu tətbiq olunub. Belə ki, avqustun 1-dən etibarən 70 min əhalisi olan bu şəhərdə dilənçiliklə məşğul olmaq üçün yerli polisdən rəsmi icazə almaq lazımdır. İcazənin məbləği isə 25 avro təşkil edir. Bundan başqa, icazəni alan şəxs İsveç ərazisində leqal şəkildə yaşamalı və sosial sığorta nömrəsinə malik olmalıdır. Şəhər rəhbərliyinin sözlərinə görə, bu addım dilənçiliyi daha da çətinləşdirmək üçün atılıb.

*****

***Portuqaliyada dünyanın ən böyük qanunsuz silah alverçilərindən olan belçikalı Jaka Mesye tutulub. Beynəlxalq axtarışda olan 66 yaşlı***




***Mesyenin tutulması haqda məlumatı Belçika federal polisi yayıb.***

***Son 30 ildə iri münaqişələr zamanı tərəfləri silahla təchiz edən bu şəxs "Marşal" və "Lis" ləqəbləri ilə tanınır. O, avtomatik silahlar, bronetexnika, vertolyotlar və digər silahların satışı ilə məşğul olub, 1980-ci illərdə İran-İraq müharibəsi zamanı da İrana silah tədarükü etməkdə şübhəli bilinir.***

***Mesyenin həbsi Fransa, Belçika və Portuqaliya hüquq-mühafizə orqanlarının əməkdaşlığı sayəsində mümkün olub.***

*****

Bu ilin birinci yarısında Gürcüstan paytaxtında yol hərəkəti qaydalarının pozulmasına görə tətbiq edilən cərimələrdən əldə edilən büdcə gəlirləri iki dəfə artıb. Bildirilib ki, hesabat dövrü ərzində yol hərəkəti qaydalarının pozulmasına görə tətbiq edilən cərimələrin məbləği 18 mln. 910 min lari təşkil edib. Hesabatda qeyd olunur ki, şəhər büdcəsinə cərimə və cəzalardan ümumilikdə 27 mln 851.3 min lari daxil olub ki, bu mövcud planın 139.3 faiz icra edildiyini göstərib.

*****

***Çinin Hebei əyalətində polis Handan şəhərində işləyəcək üç ədəd yeni növ robot alıb. Bu robotlar xüsusi olaraq polis xidməti üçün hazırlanıb və insanlarla müstəqil əlaqə qura bilirlər. Həmin robotlardan biri küçə və yolayrıcı ərazilərin patrul xidməti üçün ixtisaslaşıb. O, ictimai asayişə nəzarət edir və münaqişəli vəziyyətlərə müdaxilə edə bilər. Robotun silahı olmasa da, qaydanı pozan şəxsləri müəyyənləşdirə bilən sistemlə təchiz edildiyi üçün, onlara xəbərdarlıq verir, hətta davranışlarını kamera ilə çəkərək sonradan cərimə yazır.***

***Robot polis, özünün naviqasiya sisteminin köməyi ilə avtomobillərin nömrə nişanlarını tanıyır, müvafiq polis bölməsindən kameralar vasitəsilə gizli müşahidə aparır. İkinci süni polis yol təhlükəsizliyi xidmətinin əməkdaşlarına kömək etmək üçün yaradılıb. Onun da silahı yoxdur. Amma, ehtiyac yarananda, polis məmurunun birbaşa əmri ilə qaydanı pozanları, cinayətkarları təqib edə bilər.***

***Üçüncü, ən kiçik robot polis hadisə yerində təhqiqat apararkən köməkçi vasitə kimi xidmət göstərəcək. Məsələn, o, verilmiş perimetr çərçivəsində izdihama video nəzarət edir, asayişi pozanları təqib edir, hətta, turistlərin suallarını cavablandırır.***

***C.Natiq***

## Avqustun 14-dən 20-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 141 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 65 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 127, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 3, borclu şəxs qismində axtarışda olan 50 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 15 ağır yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 15 nəfər ölmüş, 6 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 61 fakt müəyyən edilmişdir.

Baş Mühafizə İdarəsinin rəisi Yaşar Əliyev və şəxsi heyəti Bakı Şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi Elçin Həsənov və şəxsi heyəti iş yoldaşları Samir Ağayevə əzizi
**AĞAN kişinin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Polis Akademiyasının rəisi Nazim Əliyev və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş İnformasiya Kommunikasiya İdarəsinin rəisi Dilqəm Aslanov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nəqliyyatda Baş Polis İdarəsinin rəisi Emin Şəkinski və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kriminalistik Tədqiqatlar İdarəsinin rəisi Gündüz Sadıxov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Veteranlar Şurasının sədri Fərhad Süleymanov və Şuranın üzvləri Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

NBPİ Dəmiryol Nəqliyyatında Polis İdarəsinin rəisi Yaşar Nuriyev və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Növbətçi Hissələrin İdarəetmə Xidmətinin rəisi Fuad Bəxtiyarov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN İdman Cəmiyyətinin sədri Zemfira Meftaxetdinova və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Gəncə ŞBPİ-nin rəisi Əkbər İsmayılov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sumqayıt ŞPİ-nin rəisi Nəriman İmanov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nərimanov RPİ-nin rəisi Vaqif Müslümov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Pirallahı RPŞ-nin rəisi Cümşüd İsmayılov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sabunçu RMİ-nin rəisi Əşrəf Allahyarov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mehriban Quliyeva, Aytəkin Nəcəfova, Rəbiyə Şıxəliyeva, Ruhiyyə Əliyeva, Sevinc Qafarova və Elnarə Həsənova Rəhilə Hüseynovaya qardaşı
**ƏLƏDDİN HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bərdə RPŞ-nin rəisi Muradəli Babayev və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Lənkəran ŞRPŞ-nin rəisi İslam Hümbətov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəki ŞRPŞ-nin rəisi Azər Muradov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mingəçevir ŞPŞ-nin rəisi Teymur Hacıyev və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan ŞPŞ-nin rəisi Hikmət Quliyev və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəmkir RPŞ-nin rəisi Elnur Həsənov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ucar RPŞ-nin rəisi Eldar Paşayev və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Astara RPŞ-nin rəisi Azər Cahangirov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yevlax RPŞ-nin rəisi Elnur Mehdiyev və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Zərdab RPŞ-nin rəisi Azər Əfəndiyev və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağsu RPŞ-nin rəisi Fəxrəddin Abbasov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor
CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.372
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:30